# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
## Q Ə R A R

**“Müstəqil ekspert sertifikatının əldə edilməsi üçün imtahana buraxılan şəxslərə dair tələblər, imtahanın keçirilmə qaydası və müstəqil ekspert sertifikatının forması və verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 948-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ nömrəli Qanununun tətbiq edilməsi barədə” 2008-ci il 13 mart tarixli 735 nömrəli, “Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında” 2016-cı il 11 aprel tarixli 860 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 2266 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Müstəqil ekspert sertifikatının əldə edilməsi üçün imtahana buraxılan şəxslərə dair tələblər, imtahanın keçirilmə qaydası və müstəqil ekspert sertifikatının forması və verilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 24 may 2024-cü il

№ 277

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 24 may
tarixli 277 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Müstəqil ekspert sertifikatının əldə edilməsi üçün imtahana buraxılan şəxslərə dair tələblər, imtahanın keçirilmə qaydası və müstəqil ekspert sertifikatının forması və verilməsi

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra − Qanun) 94−3.3-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və müstəqil ekspert sertifikatının əldə edilməsi üçün imtahana buraxılan şəxslərə dair tələbləri, imtahanın keçirilmə qaydasını, müstəqil ekspert sertifikatının forması və verilməsi qaydasını müəyyən edir.

1.2. Bu Qayda kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsulları sahəsi, kənd təsərrüfatı heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlar sahəsi, akvakultura məhsulları sahəsi istisna olmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 may tarixli 276 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müstəqil ekspert fəaliyyətinin həyata keçirildiyi sahələr" ilə müəyyən edilən digər sahələrə şamil olunur.

1.3. Kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsulları sahəsi, kənd təsərrüfatı heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlar sahəsi, akvakultura məhsulları sahəsi üzrə müstəqil ekspert sertifikatının əldə edilməsi üçün imtahana buraxılan şəxslərə dair tələblər, imtahanın keçirilmə qaydası, müstəqil ekspert sertifikatının forması və verilməsi qaydası "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 10.1-ci maddəsinə əsasən tənzimlənir.

## 2. Müstəqil ekspert sertifikatının əldə edilməsi üçün imtahana buraxılan şəxslərə dair tələblər

2.1. Müstəqil ekspert fəaliyyətini həyata keçirmək istəyən fiziki şəxs (bundan sonra – namizəd) aşağıdakı tələblərə cavab verməlidir:

2.1.1. məqbul və lazımi keyfiyyətlərə malik olmalıdır;

2.1.2. aşağıdakı sahələr üzrə müstəqil ekspert olmaq istədikdə ali təhsilə və müvafiq sahədəki əsas fəaliyyətin həyata keçirilməsi ilə bağlı vəzifələrdə ən azı 3 (üç) il iş təcrübəsinə malik olmalıdır:

2.1.2.1. maliyyə sahəsi;

2.1.2.2. mühəndislik sahəsi;

2.1.2.3. dəmir yolu nəqliyyatı sahəsi;

2.1.2.4. hava nəqliyyatı sahəsi;

2.1.2.5. su nəqliyyatı sahəsi.

2.1.3. avtomobil nəqliyyatı sahəsi və əmlak sahəsi üzrə müstəqil ekspert olmaq istədikdə ali təhsilə və ya həmin sahəyə münasibətdə peşə təhsilinə malik olmalıdır.

2.2. İmtahanda iştirak etmək istəyən namizəd aşağıdakı sənədləri Azərbaycan Respublikasının Mərkəzi Bankına (bundan sonra – Mərkəzi Bank) təqdim edir:

2.2.1. Mərkəzi Bank tərəfindən müəyyən olunmuş formada namizəd tərəfindən doldurulmuş anket;

2.2.2. şəxsiyyəti təsdiq edən sənədin notariat qaydasında və ya “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsi ilə müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;

2.2.3. xarici fiziki şəxsin rezidenti olduğu ölkənin müvafiq dövlət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş və qanunvericiliklə müəyyən edilmiş qaydada leqallaşdırılmış və ya apostil verilmiş arayış;

2.2.4. ali təhsil və ya peşə təhsili haqqında sənədin notariat qaydasında və ya “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsi ilə müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;

2.2.5. xarici ölkədə ali təhsil aldıqda Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən verilən xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınma şəhadətnaməsinin notariat qaydasında və ya “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsi ilə müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;

2.2.6. bu Qaydanın 2.1.2-ci yarımbəndində qeyd olunan sahələr üzrə müstəqil ekspert olmaq istəyən namizədin iş təcrübəsini təsdiq edən sənədin notariat qaydasında və ya “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsi ilə müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti.

2.3. Bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi namizədin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən tərəfindən təmin edilir.

2.4. Bu Qaydanın 2.2-ci bəndi ilə müəyyən olunmuş sənədlərə Mərkəzi Banka təqdim edildiyi gündən 30 (otuz) təqvim günü müddətində baxılır. Təqdim edilmiş (bu Qaydanın 2.3-cü bəndinin müddəaları nəzərə alınmaqla) sənədlərdə səhvlər və ya çatışmazlıqlar aşkar edildikdə bu barədə namizədə sənədlərin Mərkəzi Banka təqdim edildiyi gündən 15 (on beş) təqvim günü müddətində rəsmi məlumat verilir və ona 10 (on) təqvim günü müddətində səhvləri və ya çatışmazlıqları aradan qaldırmaq təklif edilir. Bu halda sənədlərə baxılma müddəti həmin səhvlər və ya çatışmazlıqların aradan qaldırıldığı vaxtdan hesablanır. Həmin müddət ərzində səhvləri və ya çatışmazlıqları aradan qaldırmayan namizədlər imtahana buraxılmırlar. Namizədə imtahana buraxılması və ya imtahana buraxılmasından imtina edilməsi barədə Mərkəzi Bank tərəfindən rəsmi məlumat verilir. İmtahana buraxılmayan namizəd Mərkəzi Bankın bu qərarından məhkəməyə şikayət verə bilər.

2.5. Bu Qaydanın 2.1-ci bəndinin tələblərinə cavab verən namizədlər barədə məlumat Mərkəzi Bank tərəfindən bu Qaydanın 2.4-cü bəndinə uyğun olaraq sənədlərə baxılma müddəti başa çatdıqdan sonra 5 (beş) iş günü müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə (bundan sonra − Mərkəz) göndərilir.

## 3. İmtahanın təşkili

3.1. İmtahanın təşkili, keçirilməsi və imtahan nəticəsində sertifikatların verilməsi Mərkəz tərəfindən həyata keçirilir.

3.2. İmtahanın təşkili ilə əlaqədar Mərkəz:

3.2.1. imtahanın keçirilmə tarixindən ən azı 1 (bir) ay əvvəl imtahanda iştirak etmək üçün qeydiyyat barədə elan verir;

3.2.2. imtahanın keçirilməsinə ən azı 5 (beş) təqvim günü qalmış imtahanda iştirak edəcək namizədlərin buraxılış vərəqəsini və

imtahan qaydaları barədə məlumatları əks olunan yaddaş kitabçasını Mərkəzin internet saytında (bundan sonra - sayt) yerləşdirir;

3.2.3. imtahanın qrafikini və aparılma texnologiyasını müəyyən edir;

3.2.4. imtahan suallarına dair düzgün cavabların siyahısını tərtib edir və konfidensiallığın gözlənilməsi şərtilə həmin siyahının xüsusi ayrılmış məlumat bazasında saxlanılmasını təmin edir;

3.2.5. imtahanın təşkili, keçirilməsi və nəticələri ilə əlaqədar ərizə, şikayət və təkliflərə baxır və həll edir;

3.2.6. imtahanın qrafikini internet saytı və çap mediası subyekti vasitəsilə yayır;

3.2.7. imtahanda iştirak edəcək hər bir namizədə şəxsi eyniləşdirmə kodu verir;

3.2.8. imtahan nəzarətçilərini müəyyən edir;

3.2.9. imtahanın nəticəsinin elan edildiyi gündən 15 (on beş) təqvim günü müddətində bu Qaydanın 5.2-ci bəndi ilə müəyyən edilmiş sertifikatları verir.

3.3. İmtahan sualları Mərkəz tərəfindən tərtib olunur.

3.4. İmtahan müstəqil ekspert fəaliyyətinin həyata keçirildiyi hər bir sahə üzrə Mərkəzi Bank tərəfindən təqdim edilən proqramda göstərilən materialları, o cümlədən sığorta qanunvericiliyini əhatə edir.

3.5. İmtahan mərkəzləşdirilmiş qaydada ödənişli əsaslarla Mərkəz tərəfindən Bakı şəhərində və ya regionlar üzrə keçirilir. İmtahan üçün ödəniş məbləği 80 manat (ƏDV daxil edilmədən) müəyyən edilir.

## 4. İmtahanın keçirilməsi

4.1. Mərkəz namizədlər barədə məlumat təqdim edildikdən sonra bu Qaydanın 3.2.1-ci yarımbəndinə uyğun olaraq imtahanda iştirak etmək üçün qeydiyyat barədə elan verir. İmtahan il ərzində 2 (iki) dəfədən çox olmamaqla, qeydiyyat müddətinin başa çatdığı gündən ən geci 1 (bir) ay müddətində keçirilir.

4.2. İmtahanda iştirak etmək üçün namizəd qeydiyyat müddətində bu Qaydanın 3.5-ci bəndində nəzərdə tutulmuş məbləği ödəyərək sayt vasitəsilə qeydiyyatdan keçir və ona qeydiyyatdan keçdiyini təsdiq edən elektron bildiriş göndərilir.

4.3. İmtahan bir mərhələdə keçirilir və test tapşırıqlarından ibarətdir. Test tapşırıqlarının aşağıdakı növləri vardır:

4.3.1. qapalı tipli, yəni verilən cavab variantlarından 1 (bir) doğru cavabın müəyyənləşdirilərək qeyd edilməsi tələb olunan test tapşırıqları;

4.3.2. açıq tipli, yəni cavab variantları verilməyən, doğru cavabın müəyyənləşdirilərək yazılı formada ifadə olunması tələb olunan test tapşırıqları.

4.4. Test tapşırıqlarının sayı, növləri, sığorta qanunvericiliyi və bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulmuş sahələri əhatə edən mövzular üzrə konkret bölgüsü Mərkəzi Bankla razılaşdırmaqla Mərkəz tərəfindən müəyyən olunur.

4.5. Namizədin imtahanda verdiyi cavablar aşağıdakı qaydada qiymətləndirilir:

4.5.1. qapalı tipli test tapşırıqlarının hər birinin doğru cavablandırılması 1, yanlış cavablandırılması və ya cavablandırılmaması 0 balla;

4.5.2. açıq tipli test tapşırıqlarının hər birinin doğru cavablandırılması 2, yanlış cavablandırılması və ya cavablandırılmaması 0 balla.

4.6. Bu Qaydanın 2.1.2.1-2.1.2.5-ci yarımbəndlərində qeyd olunan sahələr üzrə müstəqil ekspert sertifikatının verilməsi üçün keçirilən imtahanların davametmə müddəti 90 (doxsan) dəqiqədir. İmtahan üzrə toplanılması mümkün olan ümumi (maksimal) bal 50-dir.

4.7. Avtomobil nəqliyyatı sahəsi və əmlak sahəsi üzrə müstəqil ekspert sertifikatının verilməsi üçün keçirilən imtahanların davametmə müddəti 150 (yüz əlli) dəqiqədir. İmtahan üzrə toplanılması mümkün olan ümumi (maksimal) bal 75-dir.

4.8. İmtahan üzrə toplanılması mümkün olan ümumi (maksimal) baldan ən azı 60 faiz nəticə göstərdikdə namizəd imtahanı müvəffəqiyyətlə keçmiş hesab olunur.

4.9. İmtahanda müvəffəqiyyət qazanan namizədlər və sertifikatlar barədə məlumatlar sertifikat verildiyi gündən 5 (beş) iş günü müddətində Mərkəz tərəfindən Mərkəzi Banka təqdim olunur. İmtahanda iştirak etmiş namizədə onun tələbi ilə Mərkəz tərəfindən imtahanın nəticəsi üzrə arayış verilir.

4.10. İmtahanın nəticəsindən narazı qalan namizəd nəticənin elan olunduğu vaxtdan 3 (üç) iş günü müddətində Mərkəz tərəfindən yaradılmış apellyasiya komissiyasına müraciət edə bilər.

4.11. Apellyasiya komissiyasında müraciətə aidiyyəti mütəxəssislər tərəfindən baxılır və namizədə Mərkəz tərəfindən

əsaslandırılmış cavab verilir. Namizədin nəticələrinin düzgün hesablanmadığı aşkar edildikdə, yenidən hesablama aparılır və namizədin imtahan nəticələri yenilənir. Namizəd imtahan nəticələri ilə bağlı qəbul edilmiş qərardan məhkəməyə şikayət verə bilər.

4.12. İmtahan nəticələri imtahan başa çatdıqdan sonra ən geci 5 (beş) iş günü ərzində elan edilir. İmtahanın nəticələri haqqında məlumat saytda yerləşdirilir.

4.13. İmtahan zamanı namizədin aşağıdakı hərəkətlərə yol verməsi qadağandır:

4.13.1. saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;

4.13.2. imtahanlara mobil telefon və digər rabitə vasitələri, kalkulyator, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;

4.13.3. imtahan binasına yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu qəbildən olan əşyalarla girmək, özü ilə tütün məmulatı gətirmək;

4.13.4. səbəbindən asılı olmayaraq, imtahan başlandığı andan yerini dəyişmək, gəzişmək, yerindən durmaq və imtahanın gedişinə mane olmaq;

4.13.5. başqasının nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına (vərəqinə), sual kitabçasına baxmaq və ya öz cavab kartına (vərəqinə), sual kitabçasına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;

4.13.6. nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;

4.13.7. cavab kartını (vərəqini) və sual kitabçasını nəzarətçiyə təhvil vermədən imtahan zalını tərk etmək.

4.14. Namizədin bu Qaydanın 4.13-cü bəndində göstərilən hərəkətlərə yol verməsi halları Mərkəz tərəfindən aşkar edildikdə, onun imtahan nəticələri ləğv edilir. Bu qərardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.

## 5. Müstəqil ekspertlərin sertifikatlaşdırılması

5.1. Mərkəz sertifikat verilməsi üçün imtahanın nəticələri əsasında hər bir namizəd barədə müvafiq qərar qəbul edir.

5.2. İmtahandan müvəffəqiyyətlə keçmiş şəxslərə bu Qaydanın 1.2-ci bəndində nəzərdə tutulmuş sahələr üzrə müstəqil ekspert sertifikatları verilir.

5.3. Bu Qaydanın 5.2-ci bəndində göstərilən sertifikatların qüvvədəolma müddəti 5 (beş) ildir.

5.4. Müstəqil ekspert sertifikatının müddəti bitdikdə, yeni sertifikat almaq üçün bu Qaydada nəzərdə tutulan imtahanda yenidən iştirak edilməlidir. Müstəqil ekspert kimi fəaliyyətini davam etdirmək istəyən şəxs müstəqil ekspert sertifikatının qüvvədəolma müddətinin sonuncu ilində növbəti sertifikat almaq üçün Mərkəz tərəfindən keçirilən imtahanda iştirak edə və yenidən sertifikat ala bilər.

5.5. Sertifikat bu Qaydanın əlavəsində göstərilən formada tərtib olunur və Mərkəzin vəzifəli şəxsi tərəfindən imzalanaraq möhürlə təsdiq edilir.

## 6. Yekun müddəa

Müəyyən sahə üzrə müstəqil ekspert sertifikatı almış şəxs digər sahə üzrə müstəqil ekspert sertifikatı almaq üçün bu Qaydanın və “Aqrar sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 10.1-ci maddəsinin tələbləri nəzərə alınmaqla müstəqil ekspert sertifikatı almaq istədiyi sahə üzrə imtahandan keçməlidir.

“Müstəqil ekspert sertifikatının əldə edilməsi üçün imtahana buraxılan şəxslərə dair tələblər, imtahanın keçirilmə qaydası və müstəqil ekspert sertifikatının forması və verilməsi Qaydası”na

**əlavə**

**SIĞORTA FƏALİYYƏTİ ÜZRƏ MÜSTƏQİL EKSPERT SERTİFİKATI**

**№** _______

“_____”_____________ 20_____il

___________________________________________________________

(müstəqil ekspert sertifikatını verən qurumun adı)

___________________________________________________________

(müstəqil ekspert fəaliyyətinin sahəsi)

Müstəqil ekspert sertifikatı verilmişdir

___________________________________________________________

(şəxsin soyadı, adı, atasının adı)

Müstəqil ekspert sertifikatının qüvvədəolma müddəti

___________________________________________________________

Müstəqil ekspert sertifikatını təsdiq edən məsul şəxs

___________________________________________________________

(şəxsin soyadı, adı, atasının adı)

Vəzifəsi ___________________________________________________

İmza _______________

M.Y.

___________________